# SÖZÜN FATEHİ KÖNÜLLƏRİN FATEHİ HAQQINDA

## *Əli Rza Xələflinin "Türkiyənin zəlzələ ağrıları" məsnəvi poeması haqqında düşüncələr*



*Təyyar SALAMOĞLU,*
*ADPU-nun professoru,*
*Əməkdar müəllim*

***(Əvvəli ötən sayımızda)***

İnsanın hər hansı bir hərəkətində ona ən çox səmimiyyət hissi bəraət qazandıra bilir. Bəlkə də əvvəldə demişik, buna baxmayaraq, bir də xüsusi şəkildə vurğulayırıq: Şair hər sözündə, misrasında, beytində, yaratdığı hər tabloda, mənzərədə səmimidir. Bu əsərdə şair ilhamını səmimilik coşdurur, səmimilik idarə edir. Əli Rzanın yaradıcılığına ötəri nüfuz belə, onun şeirlərinin qəmdən doğulduğunu görməyə kifayət edir. Sənətkarın ən yaxşı əsərləri onun qəmdən boğulan zamanlarda doğulan şeirləridir. "Türkiyənin zəlzələ ağrıları"nın dərddən boğulan şairin dərddən doğulan şeirləri arasındakı yeri müstəsnadır. Kədər bu şeirdə mədhin bəraət aktıdır.

Düşünürük ki, Türkiyənin ağrıları - bu miqyassız hadisə fitrətən şair olmayanları belə şairlik yoluna sala bilər. "Dolan bulud boşalacaq. Bu hökmüdür təbiətin" - deyib müdrik və filosof şairimiz S.Vurğun.- Hamı dolub, axı!

İnsanların naləsi ərşə qalxdı, ucaldı,
Türkiyəmiz ağrıdan bircə gündə qocaldı.

Bu misralar sənətdə professionallığın nəticəsi kimi yaranmayıb. Sadəcə professionallıq, heç aşıb-daşan ilham da sözü bu səviyyədə poetik ucalığa yüksəldə bilməz, əgər baş verən hadisə, üz-üzə qaldığımız reallıq şairin içindən azı on ballıq zəlzələ yaratmasa. Sənətkarın içində yaranan zəlzələdən, yaxud fırtınadan, qasırğadan doğulub bu mədh-mərsiyə! Bu mədh-mərsiyədə sevgi ülvi bir gözəllik kəsb eləyib, ucalardan uca bir mərhələyə qalxıb. Bu elə bir sevgidir ki, şair ilhamını ilahiləşdirib, söz sahibini elə bir mərhələyə qaldırıb ki, şair fəth etdiyi mərtəbəni bu ilahi sevgidən kənarda heç vaxt bir də fəth edə bilməz:

Gözlərimin önündə fəlakət tablosu var,
Qəlbimdə yara-yara həlakət tablosu var.

Neyləyim indi axı, qəm kəsib bənd-bərəni,
Sözümün gücü çatmaz çəkəm bu mənzərəni.

Sığındım qələmimə təbim ağlar olsa da,
Sinəm üstə göynəyən qəmim dağlar olsa da.

Başımda fikirlərin şimşəyi çaxıb keçir,
Ayağımın altından yer qaçır, axıb keçir.

Müqəddəs kitabımız bütün insanları qardaşlığa çağırır, hamını "bir nöqtəyə yürüş etməyə" (N.Nərimanov) səsləyir, "nicat məhəbbətdədir" (Ə.Hüseynzadə),"hamılıqla Allahın ipinə (dininə, Qurana) möhkəm sarılın və (firqələrə bölünüb bir-birinizdən) ayrılmayın"deyir ("Ali İmran" surəsi, 103-cü ayə).

Dünyanı beş yüz ildən bir sınağa çəkən bu cür ağır təbii fəlakətə insanlığın laqeyd qaldığını, deyə bilmərik. Ümumən götürəndə dünyamız bu hadisəni böyük ağrı ilə qarşıladı. Siyasi iddiaları ilə əks qütblərdə dayanan, dini inancları ilə bir araya gələ bilməyən ölkələr, millətlər, fərqli irqlərə mənsublar Türkiyədə baş verən zəlzələni bütövlükdə dünyamızı sınağa çəkən miqyassız təbii fəlakət saydı, onun fəsadlarının aradan qaldırılması üçün kömək əli uzatdı, maddi və mənəvi dəstək oldu. İnancından və əqidəsindən asılı olmayaraq bütövlükdə insanlıq işığa doğru hərəkət etdi, zülmətdə qalan insanları işığa çıxarmağa təşəbbüs onun siması kimi göründü. İnsanlığın bu meyli bütövlükdə Türkiyəmiz üçün, türk xalqı üçün mənəvi dəstək oldu. Bu hadisədə Türkiyə bütün dünyaya və insanlığa xeyirxah yanaşmalarının əməli nəticələrini daddı. Biz də buna sevindik, Türkiyəmizlə bir daha qürur duyduq.

Ancaq, dünya heç vaxt şərdən xali olmayıb, indi də deyil. Zəlzələ hadisəsi insanlığın qaranlıqda hərəkət etməyi sevən şər xislətlilərini də hərəkətə keçirdi. Siyasi məqsədlərinə çatmaq üçün fürsəti əldən vermək istəməyən dar düşüncəli, iblis xislətli bəzi dövlət başçıları da oldu. Zəlzələ Türkiyədə keçiriləcək parlament və prezident seçkilərinin ərəfəsində baş verdi. Bəzi müxalifət partiyaları və liderləri üçün bu Ərdoğanı və Ərdoğan hökumətini gözdən salmaq fürsəti oldu. Xalqın üzləşdiyi faciədən səs toplamaq üçün siyasi divident qazanmaq istəyənlər fəallaşdılar.

Şairin təbii fəlakət ağrılarına mənəvi ağrılar da qoşuldu. Çağdaş türk siyasi mühitini Ərdoğansız təsəvvürünə gətirə bilməyən şair onun yoluna kötük diyirləyənlərin, ona iftira atanların, hakimiyyət naminə PKK ilə belə əməkdaşlığa getməkdən çəkinməyənlərin qardaş ölkəmizi hansı uçurumlara apara biləcəyini, türk xalqının öz böyük lideri ilə birlikdə çıxdığı yolun zülmətlə üz-üzə qala biləcəyini fikirləşəndə varından yox olur, iradəsi və əzmi ilə öyündüyümüz qardaş ölkə Prezidentini daha da iradəli, əzmli olmağa, müxalifət adı ilə milli inkişafa əngəl olmağa çalışanları, Vətənin taleyini hakimiyyət ehtirasına dəyişənlərin iftira və böhtanlarından ruhdan düşməməyə səsləyir:

Qürurundan enmə sən, əyilmə sən, Sultanım,
İncimə bir kimsədən, öyülməsən, Sultanım.

Səni bilməyən kimsə özündən xəbərsizdir,
Özündən xəbərsizə dan üzü səhərsizdir.

Sənə qara yaxanlar qısırdır yaddaşından,
Ağırdır yara almaq dəlibaş qardaşından.

İftiralar, böhtanlar sel olsa nə aparar,
Tufanlar, qasırğalar qayadan nə qoparar.

...Sultanım, gəldi gedər qovğalar səndən ötər,
Turandan ümmanlarca sevdalar sənə yetər.

Şair "Turan sevdalılar"ın obrazını Azərbaycanın simasında ümumiləşdirir. Bu obrazda Azərbaycan-Türkiyə münasibətlərini, "bir millət, iki dövlət" amalını simvollaşdırmaqla bərabər, həm də bütün türk dövlətlərinin və xalqlarının birliyini əks etdirir. Binəli Yıldırım, Dövlət Baxçalı kimi "Tonyukuk timsalında sözü hikmət, axcalı" millət xadimlərinin Ərdoğanın yanında yer alması, ona hər an mənəvi və siyasi dəstək verməsini işarələyən təsvirlər milli birliyin sarsılmazlığını poetikləşdirirsə, "Azərbaycan adından danışan baş komandan"ın xalqının sevgisindən güc alan mövqeyi türk dünyasının bu ağırlığı birlikdə dəf edəcəyinə, onun öz sarsılmaz əqidə və siyasəti ilə daim irəli gedəcəyinə sənətkar inamını gerçəkləşdirir:

Azərbaycan adından danışan baş komandan,
Sevgimizi çatdırır bir könüldən, bir candan.

Sultanım, tək qoymarıq səni kədər əlində,
Ağrı çəkir canımız qəza-qədər əlində.

Yaradıcı adamın hər hansı bir mövzunu həll etmək üçün (elmi, yaxud bədii) bir açar sözə, ifadəyə, ya bəlkə də fikrə, motivə ehtiyacı olur. Mövzuya giriş qapısı bu açarla açılır və o, bütün sonrakı proseslərin istiqamətini işarələyir. "Türkiyənin zəlzələ ağrıları" qəsidəsində bu tipli açar funksiyasında "Sultanım" sözü çıxış edir. Bu söz əsərdə bütün mahiyyəti işarələyir, ona gedən yolu işıqlandırır. Açar söz, ilk növbədə, əsərin janrının təyinatına işarə edir, mətnin işlənməsini klassik poetikaya bağlayır. "Sultanım" sözü müasirliyin klassik leksikada ifadəsini əks etdirir. Əsərin bilavasitə Türkiyə Prezidenti ilə bağlılığını metaforalaşdırır. Aydındır ki, sənətkarın Türkiyənin dövlət başçısı, yaxud prezidenti anlayışını "Sultanım" sözü ilə dəyişməsi ancaq prozaik mənası ilə o qədər də böyük maraq doğurmaz və poetik uğur sayılmaz.

Ancaq, birmənalı qeyd olunmalıdır ki, "Sultanım" müraciəti öz metaforik məzmunu ilə əsərin uğurunu şərtləndirən önəmli poetik detaldır. Şairin Türkiyə Prezidentinə "Sultanım" deyə müraciətı psixoloji cəhətdən tam inandırıcıdır. Rəcəb Teyyub Ərdoğan hakimiyyətdə olduğu bütün illərdə Prezidentlikdən "Sultanlıq"a doğru yol gedir. Bu məqamda "Sultanım" müraciəti "sultanlıq"ı monarxiya hakimiyyəti məzmunundan tamamilə çıxarır, onu " "ürəklərin Sultanı"na çevirir. Ərdoğanın hakimiyyətdə olduğu illərdəki əməli fəalliyyəti, Türkiyəni dünya dövlətləri arasında ön sıraya çıxarması, ölkəsinin hərbi və iqtisadi gücünü müqayisəolunmaz dərəcəyə çatdırması, həmişə haqqın, ədalətin yanında olması, xalqının mənafeyi ilə dünya xalqlarının, türk, müsəlman xalqlarının mənafeyini uzlaşdırmaq bacarığı, sülh uğrunda mücadilələri onu nəinki millətinin, bütövlükdə türk xalqlarının sevimlisinə çevirmiş, müsəlman dövlətlərinin böyük əksəriyyətində ona hörmət qazandırmış, kasıb ölkələrin xalqları onu özlərinin hamisi rolunda görmüşlər. Ərdoğanın simasında "Sultanlıq"ın insanlığa məhəbbət məzmunu önə keçmiş, "Sultanım" müraciətinə həyati əsas, haqq qazandırmışdır.

Materialist fəlsəfədə dövlət həmişə xalqı əzmək aləti kimi mənalandırılmış, daim xalqla hökmdar arasında uçurumların olduğu şüurlara yeridilmişdir. Lakin hər halda içində olduğumuz son əsrlər bizə bəzi başqa həqiqətlər də təlqin eləyir. Gözümüzün qarşısında Türkiyə CümhuriyyətininMustafa Kamal Atatürkdən Turqut Ozala və nəhayət Rəcəb Teyyub Ərdoğana, müstəqil Azərbaycan Respublikasında H.Əliyevdən İ.Əliyevə qədərki "Prezidentlik" tarixləri canlanır. Bu "tarix"lər millətlə dövlət arasındakı üzvi rabitənin, bağlılığın tarixi deyilmi? Mustafa Kamal Atatürk, yaxud H.Əliyev hakimiyyət taxtında oturmaq imkanlarından daha çox, daha ziyadə millətlərinin ürəyində qurduqları hökmdarlıq taxtları ilə milli tarixlərimizin şərəf səhifələrinə çevrilməmişlərmi? Millətlərimiz onlara "Sultanım" deyib də ürəklərinin başında yer ayırmamışdırmı? Türk dövləti, xalqı üçün fəaliyyətini bir qırağa qoyub, haqq savaşımızda bizə daim arxa duran, dəstək olan, məsələyə münasibətdə dünyanın "güc" dövlətlərinin müqavimətini qıran Ərdoğan, Ali Baş Komandan kimi uğurlu rəhbərliyi ilə ermənini yerində oturdan, torpaqlarımızın 30 illik işğaldan qurtarmasını özünün müqəddəs amalına çevirən Prezidentimiz İ.Əliyev sənətkarın onlara "Sultanım" müraciətini hakk etmirlərmi? Onlar türkün dövlətçilik ənənələrinin ən uğurlu davamçıları deyilmi? Şair bütün bunları çox yaxşı bilir, Şuşada mümkün olmayanları mümkün edən Azərbaycan ordusuna, Azərbaycan xalqına və dövlət başçımıza sözün bütün mənalarında dəstək olan "Sultan"ı Xatayda, Qəhrəmanmaraşda, Qaziyantəpdə, Elazığda, Malatyada və digər bölgələrdə həyatın tezliklə öz axarına qayıdacağının təminatçısı kimi görür. Onun poetik qənaətlərinə biz tam şərikik, bizim də inamımız şairinki qədərdir:

Malatya, Xatay bütün ... oyanar, boy göstərər,
Qalxar Qahramanmaraş, təzədən soy göstərər.

Dirilər Qaziyantəp, igid qazilər yurdu,
Doğudan Batıyacan ulayar Türkün qurdu.

Şair inamlıdır, oxucusunu da inandırır. Əslində hər şey oxucunun gözləri qarşısında baş verib və verir. Sultanları onların gözünün qarşısında hər gün ağır sınaqlardan çıxıb və çıxır. Bütün dünyanı özünün tabeçiliyində görmək istəyənlərə, özünün siyasi, iqitsadi və hərbi mənafeyinə uyğunlaşdırmaq istəyənlərə nüfuzlu beynəlxalq kürsülərdən necə sərt cavablar verdiyini, hadisələrin gedişini öz dəmir məntiqi ilə türkün xeyrinə dəyişdiyini gözləri ilə görüb və görür.

*(Davamı 9-cu səhifədə)*

(Əvvəli 8-ci səhifədə)

Gözləri ilə gördükləri onun qürurunu artırır, doğma liderlərinə məhəbbətini sonsuzlaşdırır, ürəklərdə ona qarşı məhəbbət taxtı qurulur. Hansı türk unudar axı, ermənipərəst fransız liderinə "kiminlə dans oynadığını" bilmədiyini uca səslə xatırlatmasını? Kim unudar axı tale yüklü zamanda Şuşaya səfər edib dünyanın gözü qarşısında "Şuşa bəyənnaməsi"nə imza atmasını? Bunun üçün Sultanımızın özünü dünyanın sahibi hesab edən neçə-neçə dünya liderinin müqavimətini qırdığını bilmirikmi? Bizim ürəyimizi riqqətə gətirən onun bu tipli böyük əməlləri deyilmi? Heç bir dünya liderinə müraciət etmədiyi şəkildə "sayın kardeşim İlham Aliyev" sözlərindəki istiliyi Azərbaycan xalqı duymazmı? Duyar da, qiymətləndirməzmi?

Şairlər xalqlarının sözçüsüdürlər. Siyasətçilər, elm adamları qəlbin dərinliklərinə enməz. Ürəkdən keçən hələ nə siyasətdə, nə elmdə məna yükünün ifadəsi deyil, həyati güc kəsb eləməz. Odur ki, ürəkdən ürəyə keçən istilik, gözlərdə oxunan nəvaziş, qəbul edilən qərarlardakı həssaslıq, doğmalıqdan doğan rəftarlar şair üçün ilham mənbəyidir. Ancaq sənət möcüzəsi qəlbin hərarətini ifadədən doğur, düşüncədən keçənin qəlb hərarəti ilə necə isinərək əmələ çevrilməsini psixoloji proses kimi qələmə almaqdan keçir:

Sultanım, Şuşa sənə qucaq açdı sevindi,
Qarabağda hər ürək sənin doğma evindi.

Unudulmaz Şuşada qətiyyətli çıxışın,
Şimşək olub parlayır yaddaşlarda çaxışın.

Şuşadakı çıxışın zamanın dərs silləsi,
Yağılara vurduğun tarixin tərs silləsi.

Yağılar da görürdü zirvədən baxmağını,
Alovlu sözlərinlə yandırıb yaxmağını.

Azərbaycan lideri sənə sevgi göndərir,
Bizim dönməz eşqimiz zülmət yarır, gündərir.

Məhəbbətin fatehliyi möcüzə kimidir. Nə vaxt baş verdiyi bilinməz. İnsanın onun əsarətinə necə düşdüyündən xəbəri olmaz. Bircə onu bilər ki, könlündə qurulan taxt sahibinin əsiridir. Ərdoğan bütün millətinin, bütün türk xalqlarının qəlbində taxtını qurmuş Sultandır. Qəlbimizi nə vaxt fəth etdiyini bilməsək də, ƏMƏLləri ilə fəth etdiyini çox dəqiq bilirik. Qəlbimizdə qurulan bu sultan taxtı bizim üçün qürur yeridir, istərdik bütün dünya bilsin. Əli Rza bizim istəyimizi sözə gətirir, dünyaya car çəkir:

Sən hər vaxt bizimləsən, qardaş qürurun öndə,
Biz yenilməz oluruq, sənə qardaş deyəndə.

Səninlə bir gedirik tarixin sabahına,
Səninlə bir yanırıq Türkiyənin ahına.

Səni sevən hər kəsi qardaş bildim, Sultanım,
Könlümün dünyasına sirdaş bildim, Sultanım.

Çox istərdim dostlarım adın ilə öyünsün,
Ürəkləri qəlbinin ahəngində döyünsün.

Səninlə bir gedirik sabahın dağlarına,
Zəhmətinlə bar verən eşqinin bağlarına.

Aşıq gördüyünü çağırır, şair qələmi həqiqətdən söz açır. İnsan psixologiyası belədir ki, o dara düşəndə ömür yolunun mənzərələri gözünün önündən kino lenti kimi keçir, fikir axını insanı keçmişə aparır, olub keçənləri xəyal süzgəcindən keçirməyə sövq edir. Türkiyənin ağrılı vəziyyəti, böyük liderin üzləşdiyi çətin durum psixoloji cəhətdən şairi onun şərəfli bir tarixə çevriləcək əməllərini dəyər müstəvisinə gətirməyə yönləndirir. Psixoloji cəhətdən tam əsaslıdır ki, sənətkar qardaş xalqın liderini daha çox Azərbaycan üçün elədikləri prizmasından dəyərləndirir. Çünki Azərbaycan vətəndaşı olaraq bizim üçün elənənləri daha yaxşı bilir, anında xatırlayır, xatırladıqlarının təlqinləri ilə də onu mədh edir:

Füzulidə açılır hava limanı - varsan,
Qanad açmış qartalı səmada arzularsan.

Zəngəzur qapısında Zəngilanda göründün,
Sevgimizin oduna, atəşinə büründün.

kinini qoruyub saxlayanları müşahidə etdikcə qalxıb oturur, evimizdəki rahatlıq bizə əsəb gətirir, xəcalət qarışıq bir hiss gətirir, özümüzü günahkar kimi hiss edir, hansısa bir ümidin sorağında gözümüzü yenidən telekanallardan boylanan reportajlara dikirdik. "Allah ona ümid bəsləyənləri darda qoymaz" düşüncəsi ilə dağıntılar altından sağ çıxarılanlar üçün sevinən xilasedicilərə, ətrafdakılara qoşulub sevinir, üzümüzdəki sonsuz kədər ifadəsinin yerini anın sevinci tuturdu. Hər sağ çıxan can bizim gələcəyə artan ümidimiz olurdu. Zəlzələ bölgələrini gəzən, "ağrıdan bircə gündə qocalan" böyük lider gözlərindəki kədərdən, içindəki ağrıdan qopmağa çalışıb millətinin üzünü gələcəyə çevirmək istəklərinə məhəbbət dolu gözlə baxırdıq. Əli Rzanın aşağıdakı misraları bu "baxış"ın ifadəsidir:

Sultanım, biz bilirik, dağlar dağdır sinəndə,
Qəlbin oda tutulur, bircə ümid sönəndə.

Sevinirsən, kiminsə "canı var" sorağına,
İşığından pay çatır hər ümid çırağına.

Bir körpə xilas olur ölümün pəncəsindən,
Bir başqa gül üzülür təzə-tər qönçəsindən.

Acısı sinə yaxır, "su" deyə inləyənin,
Ümidi solub gedir sükutu dinləyənin.

Əli Rza şairdir, insan kimi emosionaldır. Emosionallıq şairlik üçün uyar xüsusiyyətdir. Həqiqi şeir rasionallıqdan çox emosionallığın ifadəsidir. Türkiyənin zəlzələ ağrılarının onun emosiyalarını hansı həddə gətirdiyini təsəvvür etmək çətin deyil. Deyə bilərik ki, "Türkiyənin zəlzələ ağrıları" bu emosiyaların tüğyanından doğulub. Şeir üçün həmişə aparıcı olan bu keyfiyyət heç lirika üçün də yeganə meyar deyil. Hissi yaşantılar analitik düşüncədən keçid poetikləşəndə "diri doğulan şeir" (R.Rövşən) yaranır. Əli Rzanın ağrılarımızın tərcümanı olan bu əsəri "diri doğulub", dünyanı silkələyən dəhşətli hadisənin poetik salnaməsi kimi oxucu yaddaşına ünvanlanıb. Zaman keçəcək, əsrlər bir-birini əvəz edəcək, gələcək nəsillər bu zəlzələnin statistikası ilə tarix

# SÖZÜN FATEHİ KÖNÜLLƏRİN FATEHİ HAQQINDA

## *Əli Rza Xələflinin "Türkiyənin zəlzələ ağrıları" məsnəvi poeması haqqında düşüncələr*

Ali Baş Komandanın başsağlığı təskinlik,
Yağılara yönümüz barışmazlıq, kəskinlik.

Yüzlərlə könüllünün köməyi istəyimiz,
İki dövlət, bir millət amalı dəstəyimiz.

Böyük Füzuli sözün ustadı olaraq ürəklərdə qurduğu şahlıq səltənətindən söz açırdı. Bu səltənəti əbədiliyinə görə dövran şahlarının səltənətindən üstün tuturdu. Bizi də bu həqiqətə inandırırdı. İndi də şübhəmiz yoxdur. Füzuli ürəklərdəki səltənətini ürəkləri əsir edən sözüylə qururdu. Əlbəttə, sözünün dalı-qabağı olmayan, haqqı-ədaləti tapdayan, elmi dillə desək, millətinin mənafeyini bəşərin mənafeyi ilə tamamlaya bilməyən, öz xudbin niyyətləri ilə dünyanı qan dənizi kimi çalxalayan, silah satıb "güc" alan hökmdarlar ürəklərdə səltənət qura bilməzlər, axı! Haqlıdır, böyük ustad, min dəfə haqlıdır. Yaşadığı zamanda gördüklərini SÖZə gətirirdi, gördükləri onu bu qənaətə gətirirdi. Füzuli varisi şairimiz də gördüklərini SÖZə gətirir, SÖZünü həqiqətlə bəzəyir, süsləyir və bu həqiqət ona fərqli qənaətlər təlqin eləyir. Bəli SÖZ böyük qüvvədir, Xətai babamız da təsdiq etmiş:

Söz vardır kəsdirər başı,
Söz vardır kəsər savaşı.

Həqiqətin SÖZdəki ifadəsi budur. Lakin şairin içindən başqa bir hiss də keçir. Bu hiss ağılla təmasa girəndə "bəli SÖZ vardır, lakin SÖZlə bərabər ƏMƏL də vardır" düşüncəsi formalaşır. Dünyanı qan dənizinə çevirən əməllə bərabər, dünyanı Allahın Cənnətinə çevirməyi amal seçən əməl sahibləri də vardır. Bu böyük hərfli ƏMƏLdir. Bu ƏMƏL artıq Füzuli SÖZü gücündədir. Sahibinə milyonların könüllərində taxt qurmağa imkan verir. Əli Rza Xələfli bu ƏMƏLi SÖZə çevirir, könüllərdə taxt quran Sultanın böyük əməllərindən söz açır. Əli Rza şeirində qələm danışmır, könüllər danışır, insanlar könüllərini verdiyi Sultanlarından danışırlar. Sənətkarlarımız məhəbbətdən əbədi bir hiss kimi söz açırlar.

Şair Azərbaycan-Türkiyə münasibətlərinə, İlham Əliyev-Ərdoğan qardaşlığına bir-birinə təmənnasız kömək göstərməyin, çətin gündə arxa durmağın fonunda dəyər verir. Azərbaycan və türk xalqlarının birliyini artıq ruh birliyi kimi görür. Bir-birinin ağrısına ağrımaqda, sevincinə sevinməkdə dünyanın heç bir xalqına nəsib olmayan fərqli keyfiyyət sezir, "bir millət, iki dövlət" olmağın həqiqi modelini poetik sözün tərənnüm obyektinə çevirir:

Azərbaycan bu dərdin ocağında közlənir,
Türkiyənin yanğısı varlığımda sözlənir.

Minlərlə könüllümüz aparır can yerinə,
Qəlbləri məlhəm etsin yaralı qan yerinə.

Yuxarıda da qeyd etmişik ki, Türkiyə zəlzələsində bütün dünya ayaqda idi. Bütün dövlətlər, xalqlarhərə bir şəkildə, bir formada hadisəyə dəstəyin iştirakçısına çevrilməyə çalışırdı. Lakin bütün bu iştirakçılar içərisində Azərbaycanın iştirakı başqa bir keyfiyyətdə görünürdü. Azərbaycan xalqı sanki başqa bir dövlətin ağrısına yanmırdı, sanki öz ağrısını yaşayırdı. Dəhşətli zəlzələ Türkiyədə baş vermişdi, ya Azərbaycanda, onun bizim üçün fərqi yox idi. Dövlət səviyyəsində, təşkilatlar səviyyəsində, şəxsi imkanlar səviyyəsində hamı səfərbər olur, əlindən gələni edir, hamı ürəyinin odunu zərrə qədər də olsa, söndürməyə çalışırdı. Heç bəzən söndürməyə də çalışmırdı, eləcə Qəhrəmanmaraşdakılar, Xataydakılar, Malatyadakılar kimi köz-köz alışıb yanırdı. Ürəyimizin oduna dövlətimiz səviyyəsində göstərilən dəstəklər, xilasetmə işinə hamıdan əvvəl qoşulan sahə adamlarımız, toplanan yardımda iştiraklarımız hansısa bir formada bizə təsəlli olurdu. Televizorda hər an, hər saat, hər gün çökən binaları, çıxarılan cəsədləri, baş verən möcüzələri ardıcıl izlədikcə, başda Sultanımız olmaqla dövlət adamlarının necə yandığını gördükcə, sıravi insanların, anasını itirən balanın, balasını itirən ananın, ailəsini itirib tək qalanın fəryadlarını eşitdikcə, bu vəziyyətdə belə təm-

kitabları vasitəsi ilə tanış olacaq, lakin bu hadisədən dolayı yaşantıları, millətinin ağrılarını poetik sözün vasitəsilə təsəvvür edəcəklər. Olsun ki, Türkiyə zəlzələsi çox sənətkarı stol arxasında oturdacaq, lakin bütün hallarda Əli Rzanın əsəri türk və həm də dünya oxucusu üçün etibarlı mənbə olacaq. Necə ki, Gəncə zəlzələsi ilə bağlı Nizaminin "İsgəndərnamə"si, Təbriz zəlzələsi üçün Qətranın "Təbriz zəlzələsinin təsviri"ni verən qəsidələri zaman-zaman ən etibarlı mənbə olub, tarixin "ən səmimi, ən həqiqi ifadəsi" (N.Cəfərov) sayılıb.

Ə.Rzanın "zəlzələ ağrıları"na Təbriz zəlzələsinin də, Gəncə zəlzələsinin də yaratdığı ağrılar qoşulub:

Yaddaşda adı qalan fəlakətlər az deyil,
Olanı sözə çəkmək naz deyil, avaz deyil.

Zamanında Nizami görün nədən danışıb,
Səmaları titrədən zəlzələdən danışıb.

Allah özü acizdir, hesabı fələk sayıb,
Gəncəni alt-üst qoyub, Kəpəzi parçalayıb.

Əvəzində Göygölü güzgü verib insana,
"İbrətlə bax, ey könlüm" bu çətinə, asana.

Təbrizdə, Şamaxıda qızıl öküz neyləyib,
Zamanın yaddaşına tarix yazıb, əyləyib.

Ə.R.Xələflinin poetik təsvirin tərkib hissəsinə çevirdiyi zəlzələlər öz miqyası ilə sözü gedən Türkiyə zəlzələsi ilə müqayisə obyekti ola bilər. Çünki şairin haqqında danışdığı Təbriz zəlzələsində 40 min, Gəncə zəlzələsində 200 mindən çox adamın məhv olduğu, Şamaxı zəlzələsinin şəhəri büsbütün viran etdiyi tarixin yaddaşında qalır.

Şairin oxucusuna təlqin etmək istədiyi odur ki, fələyin tərs gərdişinə rəğmən indi Təbriz də, Gəncə də, Şamaxı da öz möhtəşəm varlığını qoruyub saxlayır.

(Davamı 16-cı səhifədə)

*(Əvvəli 9-cu səhifədə)*

Demək tarix bizə öyrədir ki, baş vermiş hadisə müqabilində (bu hadisə nə qədər miqyassız olsa da) biz təmkinimizi qoruyub saxlamalıyıq, inamımızı itirməməliyik:

Tarixdə olanları dərs bilib, əxz eyləyək,
Ürəkdəki yaranı təskinliyə bələyək.

Şair özü də tarixdən dərs alır. Onun təskinlik qənaəti həm də milli ədəbi ənənədən gəlir. Şair də yaxşı bilir ki, Təbriz zəlzələsində 40 min nəfərdən çox insan həlak olmuşdur və Qətran Təbrizi də bu faciənin ağırlığını özünün poetik sözündən keçirmişdir:

Aləmin bünövrəsi qoyulan zamandan,
Dünyanın əsas qoyulan vaxtdan

Bütün dünyada kimsə elə bir zəlzələ eşitməmişdi,
Bütün dünyada kimsə belə bir fəlakət görməmişdi.

Şair Təbriz zəlzələsinə həsr olunmuş hər iki qəsidəsində baş verən fəlakət haqqında elə real, elə canlı və konkret təsvirlər verir ki, sanki min il bundan qabaq baş vermiş bir hadisədən yox, elə Türkiyə zəlzələsindən söhbət gedir. Çünki təsvirlər Türkiyə zəlzələsi ilə tam bir assosiasiya yaradır:

Ürəkdən yarım bir ah qopa bilməyəcək bir müddətdə,
Ağızdan yarım söz çıxara bilməyəcək bir zamanda
Allah Təbriz xalqını fənayə uğratdı.

Qətran təbrizlilərin üzləşdiyi bütün fəlakətləri, itirdikləri haqqında tam təsəvvür yaratdıqdan sonra gözlənilməz qənaətə gəlir. Bu qənaət oxucunu bədbinlikdən uzaq olmağa, gələcəyə nikbin baxmağa səsləyir. Şairin oxucuya təlqin etmək istədiyi budur ki, bu şəhər yenə də:

# SÖZÜN FATEHİ KÖNÜLLƏRİN FATEHİ HAQQINDA

## *Əli Rza Xələflinin "Türkiyənin zəlzələ ağrıları" məsnəvi poeması haqqında düşüncələr*

Hər iki İraqdan və Xorasandan yaxşı olacaqdır.
Şairin fikrinin məntiqi əsası varmı?
Şair sübut edir ki, var.

Ölkənin hökmdarı Məmlan sağdır və o, şəhəri əvvəlki vəziyyətinə qaytarmağa qadirdir. Buna görə də hökmdar Məmlan Qətranın qəsidələrində poetik ilhamın bütün gücü ilə mədh olunur. Qətranın qəsidələrinin yaşarılığını şərtləndirən odur ki, hökmdar xalqı üçün gördüyü işlərə görə mədh olunur. Mədh burada subyektiv mənafedən güc almır.

Heç şübhəsiz ki, şair düşüncəsində olduğu kimi, oxucu düşüncəsində də Qətranın bu qəsidələrindəki təsvirlərlə Türkiyə zəlzələsinin yaratdığı təəssüratlar dialoji münasibətə girir, çünki sənətkar tarixə poetik müraciəti ilə belə bir münasibətə zəmin yaradır. Tarix öz yerini çağdaş hadisəyə verəndə Məmlanın yerini oxucu düşüncəsində Rəcəb Teyyub Ərdoğan alır. O, Ərdoğan ki, dağılan bütün evlərin bir ildə tikiləcəyini elan etdi. O, Ərdoğan ki, gərək ki, bir dəfə TBMM-nə seçkilərdən birinin ərəfəsində belə demişdi: "İndiyə qədər gördüyümüz işlər, bundan sonra görəcəyimiz işlərin qarantıdır". Bunu dünya da bilir, milləti də bilir, biz də bilirik. Hamı bilir ki, Sultanımız dediyi sözün arxasında durandır. Ona görə də söz elə Qətran deyəndir:

Artıq bu dövlətin xeyirxahı qəmgin olmamalıdır,
Artıq bu ölkənin bədxahı şad olmamalıdır.

Çağdaşımız şair də elə bu ovqatla üzünü Sultanına tutur, poetik ovqat nikbin pafosa köklənir:

Sultanım, əyilmə sən, əyilməz Tanrı dağı,
Yağılara göz dağı - sönməz Türkün çırağı.

Şair yanğısını "sözlərinə bürüyüb" ürəyini boşaldır. Ürəyindəki "yük"ü atıb az da olsa yüngülləşir, az da olsa rahatlanır. Düşünürük ki, bəlkə elə biz də bu qaraladıqlarımızı ürəyimizi boşaltmaq, az da olsa rahatlanmaq istəyilə qələmə alırıq? Kim bilir? Bəlkə də.

